HLB THE ADVISORY AND ACCOUNTING NETWORK

HLB AZƏRBAYCAN MMC
Time Biznes Mərkəzi
8-ci mərtəbə
4-cü tramvay küçəsi, AZ1010
Bakı, Azərbaycan

T: +994 (12) 310 04 56
E: office@hlb.az

**MÜSTƏQİL AUDİTORUN HESABATI**
**ƏMƏK BAZARI VƏ SOSİAL MÜDAFİƏ MƏSƏLƏLƏRİ ÜZRƏ MİLLİ OBSERVATORİYA TƏSİSÇİSİ VƏ RƏHBƏRLİYİNƏ**

***Şərti-müsbət Rəy***

Biz Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ("Nazirlik") tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya publik püquqi şəxsinin (bundan sonra "Observatoriya") 6-34-cü səhifələrdə açıqlanmış 31 dekabr 2022-ci il tarixə maliyyə vəziyyəti, həmin tarixdə başa çatan il üçün məcmu gəlirlər haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat, pul axınları haqqında hesabat, mühüm uçot siyasətləri daxil olmaqla maliyyə hesabatlarına qeydlərin auditini apardıq.

Bizim rəyimizcə, əlavə edilmiş maliyyə hesabatları Observatoriyanın 31 dekabr 2022-ci il tarixə maliyyə vəziyyəti, həmin tarixdə başa çatmış il üçün maliyyə nəticələri və pul vəsaitlərinin axınlarını, kapitalın hərəkətini "Şərti-müsbət rəy üçün əsaslar" bölməsində açıqlanan məsələlərin təsiri nəzərə alınmaqla, Maliyyə Hesabatlarının Beynəlxalq Standartları"na (bundan sonra MHBS" və ya "İFRS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün və ədalətli əks etdirir.

***Şərti-müsbət rəy üçün əsaslar***

*Material və inventarların qalığı*

Biz Observatoriyanın kənar auditoru kimi 14 sentyabr 2023-cü ildə təyin olunmuşuq və 31 dekabr 2022-ci il tarixə maliyyə hesabatlarında açıqlanan 83,609 manat material və inventarların qalıqların faktiki sayılmasında iştirak etməmişik. Biz geriyə sayım prosedurları tətbiq edərək maliyyə hesabatları üzrə ilkin qalıqları təsdiq etsək də, audit aparılan son tarixə maddi qiymətlilərin tam inventarizasiyası aparılmadığı üçün 31 dekabr 2022-ci il tarixə qeyd olunan material və inventarların qalıqları ilə bağlı əsaslandırılmış əminlik əldə edə bilmədik.

*Vergi və məcburi ödənişlərlə bağlı öhdəliklər*

Aparılmış audit prosedurları vasitəsilə biz əvvəlki illərdəki hesablaşmaların artan yekunla təsiri nəzərə alınmaqla, 31 dekabr 2022-ci il tarixə dövlət büdcəsinə vergi öhdəlikləri, məcburi dövlət sosial sığorta haqları, işsizlikdən sığorta və icbari tibbi sığorta üzrə hesabalaşmalar üzrə qalıqlar (öhdəlik) və artıq ödənişlərlə (aktivlər) bağlı əsaslandırılmış əminlik əldə edə bilmədik.

***Diqqət çəkən məsələlər***

İlkin qalıqlar və müqayisəli rəqəmlər

31 dekabr 2021-ci il tarixdə başa çatmış il üçün maliyyə hesabatlarının auditi "L.B, Audit xidməti" MMC tərəfindən həyata keçirilmişdir və 24 fevral 2023-cü il tarixdə "Şərti-müsbət rəy verilmişdir.

İlkin qalıqların və müqayisəli rəqəmlərin audit olunması bizim audit tapşırığımıza daxil deyil və biz ilkin qalıqları maliyyə hesabatlarının məzmununa əhəmiyyətli təsir edən sahələrdə yoxlamışıq. Ona görə də biz ilkin qalıqlar və müqayisəli rəqəmlər, əlaqəli rəqəmlərin artan yekunla maliyyə hesabatlarına təsiri ilə bağlı yalnız bizim audit tapşırığına daxil olan sahələrdə əminlik veririk və bu da əvvəlki ilin maliyyə hesabatları ilə bağlı bütövlükdə hansısa bir əminlik ifadə etmir.

Fəaliyyətin davamlılığı

"Məcmu gəlirlər haqqında hesabat"da açıqlanmış 31 dekabr 2022-ci il tarixdə başa çatmış il üçün 2,546,235 manat zərər məbləğinə diqqəti çəkmək istərdik. Observatoriya dövlət əhəmiyytəli publik hüquqi şəxs olduğu üçün büdcədən kənar fondlardan məqsədli maliyyələşmələrin davamlı ayrılacağı ehtimalı yüksək qiymətləndirilir. Audit rəyi hesabat tarixlərinə mövcud olan şərtlər və amillər nəzərə alınmaqla fəaliyyətin davamlılığı prinsipi əsasında hazırlanmışdır və qeyd olunan şəraitdən qaynaqlanan məsələlərlə bağlı olaraq audit rəyimizdə şərt qoymamışıq.

**Rəy üçün əsas**

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun aparmışıq. Bu standartlar çərçivəsində bizim məsuliyyətimiz audit hesabatlarının Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti bölməsində təsvir edilmişdir. Biz Peşəkar Mühasiblər üçün Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Mühasiblərin Etika Məcəllәsi (İESBA Məcəlləsi) ilə yanaşı, Azərbaycan Respublikasında maliyyə hesabatlarının auditi ilə bağlı qüvvədə olan tələblərə uyğun olaraq müstəqilik və biz digər etik tələblərlə bağlı məsuliyyətimizi bu tələblərə və İESBA Məcəlləsinə uyğun yerinə yetirmişik.

Biz rəyimizi əsaslandırmaq üçün kifayət qədər və uyğun sübutlar topladığımıza inanırıq.

**Əsas Audit Məsələləri**

Əsas audit məsələləri, bizim peşəkar mühakiməmizə əsasən cari dövrün maliyyə hesabatlarının auditi zamanı əhəmiyyət kəsb edən məsələlərdir. Bu məsələlər bütövlükdə maliyyə hesabatlarının auditi nöqteyi-nəzərindən cavablandırılmışdır və ona görə də rəyimizi formalaşdıran zaman bu məsələlər üzərində ayrıca rəy vermirik.

**Digər məsələlər**

Rəhbərlik digər məlumatlar üçün məsuliyyət daşıyır. Bu məlumatlar illik hesabatlara daxil edilən, lakin maliyyə hesabatlarında açıqlanmayan və buna görə də bizim audit hesabatımıza daxil edilməyən məlumatlardan ibarətdir.

Maliyyə hesabatları üzrə bizim rəyimiz digər məlumatları əhatə etmir və bu məsələlər üzərində heç bir formada əminlik vermirik.

Maliyyə hesabatlarının auditi ilə əlaqədar bizim məsuliyyətimiz digər məlumatları oxumaq və bu məlumatların maliyyə hesabatları ilə əhəmiyyətli dərəcədə uyğun olub olmadığını nəzərdən keçirmək və ya bizim audit zamanı topladığımız məlumatların əhəmiyyətli dərəcədə təhrif olduğunu müəyyən etməkdir. Həyata keçirdiyimiz prosedurlar zamanı digər məlumatların əhəmiyyətli dərəcədə təhrif olunması nəticəsinə gəliriksə, bizdən bu faktları hesabata daxil etmək tələb olunur. Bununla bağlı biz hesabatımıza heç bir məlumat daxil etmirik.

**Maliyyə hesabatları üçün Rəhbərliyin məsuliyyəti**

Rəhbərlik Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğunlaşdırılmış Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq düzgün və ədalətli əks etdirən maliyyə

hesabatlarının hazırlanması və fırıldaqçılıq və ya səhvlər nəticəsində yaranan təhriflər olmayan maliyyə hesabatlarının hazırlanmasını təmin edən daxili nəzarəti təşkil edir.

Maliyyə hesabatlarının hazırlanması zamanı Rəhbərlik Observatoriyanın davamlı fəaliyyət göstərmək imkanlarının qiymətləndirilməsi və davamlı fəaliyyətlə bağlı məsələlərin açıqlanması, Observatoriyanın ləğv edilmə ehtimalının olmaması və ya tətbiq edilməsi mümkün olmadığı hallar istisna olmaqla, davamlı fəaliyyətinə əsaslanan uçot sistemi qurulması üçün məsuliyyət daşıyır.

Rəhbərlik Observatoriyanın maliyyə hesabatverməsi prosesinin idarə edilməsi üçün məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditi ilə bağlı auditorun məsuliyyəti**

Bizim məsuliyyətimiz maliyyə hesabatlarında bütövlükdə fırıldaqçılıq və ya səhvlər nəticəsində yaranan təhriflərin olmaması ilə bağlı ağlabatan əminlik vermək və rəyimizi özünə daxil edən audit hesabatını verməkdir. Ağılabatan əminlik yüksək dərəcəli əminlikdir, lakin BAS uyğun olaraq aparılmış auditin həmişə əhəmiyyətli təhrifləri aşkar edəcəyinə təminat vermir. Təhriflər fırıldaqçılıq və səhvlər nəticəsində yarana bilər və fərdi və ya icmallaşmış surətdə maliyyə hesabatlarına əsaslanaraq çıxarılmış iqtisadi qərarlara təsir etdiyi hallarda əhəmiyyətli hesab edilir.

BAS-a uyğun olaraq aparılmış auditin tərkib hissəsi kimi audit zamanı biz peşəkar mühakimə və ehtiyyatlılıq nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və səhvlər nəticəsində yaranan əhəmiyyətli təhriflər riskini müəyyən edir və qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını hazırlayır, həyata keçirir və rəyimiz üçün əsas verən kifayət qədər və uyğun sübutlar toplayırıq. Fırıldaqçılıqdan yaranan təhriflərin aşkar edilməməsi riski səhvlərdən yaranan təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir, çünki fırıldaqçılıq sövdələşmə, saxtakarlıq, qəsdən təhriflər, yalan məlumat vermək və ya daxili nəzarətdən yan keçmək hallarını əhatə edir.
- Observatoriyanın daxili nəzarətinin səmərəliliyi üzərində rəy vermək məqsədilə deyil, verilmiş şəraitə uyğun olan audit prosedurlarını hazırlamaq məqsədilə auditə uyğun olan daxili nəzarət haqqında məlumat toplayırıq.
- Tətbiq edilmiş uçot siyasətlərinin və mühasibat qiymətləndirmələrinin ağlabatanlığı və rəhbərlik tərəfindən edilmiş açıqlamaların uyğunluğunu qiymətləndiririk.
- Rəhbərlik tərəfindən davamlı fəaliyyətin uçotunun tətbiqinin uyğunluğu ilə bağlı nəticəyə gəlməli və toplanmış sübutlar əsasında Observatoriyanın davamlı fəaliyyət göstərməsinə mane olacaq hadisə və şəraitlə bağlı qeyri-müəyyənliklərin mövcudluğunu müəyyən etməliyik. Biz əhəmiyyətli olan qeyri-müəyyənliklərin mövcud olması qənaətinə gəliriksə, biz audit hesabatında maliyyə hesabatlarının müvafiq qeydlərində olan açıqlamalara diqqəti cəlb etməliyik və ya bu açıqlamalar uyğun olmadıqda rəyimizi modifikasiya etməliyik. Bizim nəticələr audit hesabatı tarixinə topladığımız audit sübutlarına əsaslanır. Lakin gələcək hadisələr və şərait Observatoriyanın davamlı fəaliyyət göstərməsinə mane ola bilər.
- Açıqlamalar daxil olmaqla maliyyə hesabatlarının təqdimatını, strukturunu və məzmununu qiymətləndirir və maliyyə hesabatlarının ədalətli və düzgünlüyünü təmin etmək məqsədilə əməliyyatlarla və hadisələrlə əsaslandırılmasını qiymətləndirir.

Biz rəhbərliklə digər məsələlərlə yanaşı auditin miqyası, müddətini və audit zamanı aşkar edilmiş daxili nəzarətdə boşluqlar daxil olmaqla mühim audit faktlarını müzakirə edirik.

Biz həmçinin rəhbərliklə müstəqilliklə bağlı müvafiq etik tələblərə əməl etməyimizlə əlaqədar bəyanat təqdim edirik və onlara müstəqilliyimizə təsir etməsi ehtimal olunan bütün əlaqələr və digər məsələlər, müvafiq olduğu hallarda isə onların qarşısını almaq üçün həyata keçirilən tədbirləri müzakirə edirik.

Rəhbərliklə müzakirə etdiyimiz məsələlərin tərkibindən cari dövrün maliyyə hesabatlarının auditi zamanı mühüm əhəmiyyət kəsb edən məsələləri müəyyən edirik və ona görə də bu məsələlər əsas audit məsələləridir. Qanunvericilik həmin məsələlərin ictimaiyyətə açıqlanmasını məqsədəuyğun hesab etmədiyi hallardan başqa, biz həmin məsələləri audit hesabatında açıqlayırıq.

HLB Azərbaycan

*30 dekabr 2023*

## ƏMƏK BAZARI VƏ SOSİAL MÜDAFİƏ MƏSƏLƏLƏRİ ÜZRƏ MİLLİ OBSERVATORİYA

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXƏ**
*(Azərbaycan manatı ilə)*

| | Qeyd | 31 dekabr 2022 | 31 dekabr 2021 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Cari aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 4 | 1,191,229 | 318,925 |
| Material və inventarlar | 8 | 83,609 | 43,335 |
| Əsas fəaliyyət üzrə debitor borclar | 7 | 4,800 | 23,140 |
| Qabaqcadan ödənişlər | 5 | 1,680 | - |
| Sair cari aktivlər | 6 | 16,896 | - |
| | | **1,298,214** | **385,400** |
| **Uzunmüddətli aktivlər** | | | |
| Torpaq, tikili və avadanlıqlar | 9 | 256,614 | 97,422 |
| Qeyri-maddi aktivlər | 10 | 92,951 | 4,684 |
| Kapital qoyuluşları | 10 | - | 85,066 |
| Nizamnamə fondu üzrə alınası aktivlər | 14 | 1,000,000 | 1,000,000 |
| | | **1,349,565** | **1,187,172** |
| **CƏMİ AKTİVLƏR** | | **2,647,779** | **1,572,572** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **Cari öhdəliklər** | | | |
| Kreditor borclar | 11 | 63,133 | 7,023 |
| Sair cari öhdəliklər | 12 | 1,716 | 13,797 |
| | | 64,849 | 20,820 |
| Mənfəət vergisi üzrə öhdəlik | | 2,400 | - |
| | | **67,249** | **20,820** |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 14 | 1,000,000 | 1,000,000 |
| Bölüşdürülməmiş mənfəət | | 555,698 | 310,175 |
| Əlavə kapital | 15 | 71,067 | 241,577 |
| Kapital ehtiyatları | 13 | 953,765 | - |
| | | **2,580,530** | **1,551,752** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **2,647,779** | **1,572,572** |

**Rəhbərlik adından**

**Səfərli Elnur**
**İdarə Heyətinin sədri**

**Rəhimov Kamran**
**Şöbə müdiri**

30 dekabr 2023

1-25 Qeydlərdə əks etdirilmiş məlumatlar bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## ƏMƏK BAZARI VƏ SOSİAL MÜDAFİƏ MƏSƏLƏLƏRİ ÜZRƏ MİLLİ OBSERVATORİYA

### MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT
### 31 DEKABR 2022-Cİ İL TARİXDƏ BAŞA ÇATMIŞ İL ÜÇÜN
*(Azərbaycan manatı ilə)*

| | Qeyd | 2022 |
|---|---|---|
| Xidmətlərin göstərilməsindən gəlirlər | 7 | 10,150 |
| Xidmətlərin maya dəyəri | | - |
| Ümumi mənfəət | | **10,150** |
| | | |
| Sair gəlir və xərclər | 7 | (3,367) |
| **Əməliyyat mənfəəti** | | **6,783** |
| | | |
| **Əməliyyat xərcləri** | | |
| Əmək haqqı və onunla bağlı xərclər | 17 | (2,120,786) |
| Köhnəlmə və amortizasiya | 9 | (25,586) |
| İcarə öhdəlikləri üzrə xərclər | 19 | (347,304) |
| İnzibati xərclər | 18 | (59,342) |
| | | **(2,553,018)** |
| | | |
| **Vergidənqabaq mənfəət/(zərər)** | | **(2,546,235)** |
| Mənfəət vergisi | 20 | - |
| **İl üçün mənfəət/(zərər)** | | **(2,546,235)** |
| | | |
| **Digər məcmu gəlir və xərclər** | | |
| Daxil olan maliyyələşmə | 13 | 3,500,000 |
| Əvəzsiz alınmış maddi qiymətlilər | 15 | 56,611 |
| | | **3,556,611** |
| **İl üçün məcmu gəlir/(zərər)** | | **1,010,376** |

**Rəhbərlik adından**

**Səfərli Elnur**
**İdarə Heyətinin sədri**

**Rəhimov Kamran**
**Şöbə müdiri**

30 dekabr 2023

1-25 Qeydlərdə əks etdirilmiş məlumatlar bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## ƏMƏK BAZARI VƏ SOSİAL MÜDAFİƏ MƏSƏLƏLƏRİ ÜZRƏ MİLLİ OBSERVATORİYA

### KAPİTALIN HƏRƏKƏTİ HAQQINDA HESABAT
### 31 DEKABR 2022-Cİ İL TARİXDƏ BAŞA ÇATMIŞ İL ÜÇÜN
*(Azərbaycan manatı ilə)*

| | Nizamnamə Kapitalı | Bölüşdürülməmiş mənfəət | Əlavə Kapital | DMA-dən maliyyələşmə | Cəmi Kapital |
|---|---|---|---|---|---|
| **01.01.2021-ci il tarixə** | **1,000,000** | **310,175** | **241,577** | **-** | **1,551,752** |
| İlkin qalığa düzəlişlər | - | 18,402 | - | - | 18,402 |
| Yenidən təsnifləşdirmə | - | 227,121 | (227,121) | - | - |
| **31.12.2021-ci il tarixə** | **1,000,000** | **555,698** | **14,456** | **-** | **1,570,154** |
| Məcmu gəlir/(zərər) | - | (2,546,235) | 56,611 | 3,500,000 | **1,010,376** |
| Əlavə edilir/(silinir) | - | 2,546,235 | - | (2,546,235) | **-** |
| | **-** | **-** | **56,611** | **953,765** | **1,010,376** |
| **31.12.2022-ci il tarixə** | **1,000,000** | **555,698** | **71,067** | **953,765** | **2,580,530** |

**Rəhbərlik adından**

**Səfərli Elnur**
**İdarə Heyətinin sədri**
30 dekabr 2023

**Rəhimov Kamran**
**Şöbə müdiri**

1-25 Qeydlərdə əks etdirilmiş məlumatlar bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

**ƏMƏK BAZARI VƏ SOSİAL MÜDAFİƏ MƏSƏLƏLƏRİ ÜZRƏ MİLLİ OBSERVATORİYA**

**PUL AXINLARI HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXDƏ BAŞA ÇATMIŞ İL ÜÇÜN**
*(Azərbaycan manatı ilə)*

| | | 2022 |
|---|---|---|
| **Əməliyyatlar üzrə pul axınları** | | |
| Vergidənqabaq mənfəət/(zərər) | | (2,546,235) |
| Pul axınları ilə bağlı olmayan düzəlişlər: | | |
| Köhnəlmə və amortizasiya | 9 | 25,586 |
| Pul axınları ilə bağlı olmayan sair düzəlişlər | | 17,196 |
| | | (2,503,453) |
| İşçi kapitalda dəyişikliklər: | | |
| Cari aktivlərdə dəyişiklik | | (40,510) |
| Cari öhdəliklərdə dəyişiklik | | 44,029 |
| | | **(2,499,934)** |
| Ödənilmiş mənfəət vergisi | | (800) |
| **Əməliyyatlarla bağlı xalis pul axınları** | | **(2,500,734)** |
| **İnvestisiya fəaliyyəti ilə bağlı pul axınları** | | |
| Əsas vəsaitlərin alışı | 9 | (126,962) |
| Qeyri-maddi aktivlərin alışı | - | - |
| **İnvestisiya fəaliyyəti ilə bağlı xalis pul axınları** | | **(126,962)** |
| **Maliyyə fəaliyyəti ilə bağlı pul axınları** | | |
| Təsisçidən daxil olmuşdur | 13 | 3,500,000 |
| Təsisçiyə ödənilmişdir | | - |
| **Maliyyə fəaliyyəti ilə bağlı xalis pul axınları** | | **3,500,000** |
| **İl ərzində xalis pul axınları** | | **872,304** |
| **İlin əvvəlinə qalıq** | **4** | **318,925** |
| **İlin sonuna qalıq** | **4** | **1,191,229** |

**Səfərli Elnur**
**İdarə Heyətinin sədri**

**Rəhimov Kamran**
**Şöbə müdiri**

30 dekabr 2023

1-25 Qeydlərdə əks etdirilmiş məlumatlar bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.